Birinci vitse-prezident Mehriban Əliyeva Cabir İmanovun vəfatı ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Əməkdar artist Cabir İmanovun vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Nurlu, səmimi və qeyri-adi istedada malik insan - Cabir İmanovun vəfatı xəbəri məni sarsıtdı. Bütün ailəmiz kədərlənir, onun yaxınlarına və doğmalarına başsağlığı veririk.

Allah rəhmət eləsin".

Azərbaycan. - 2025.- 30 sentyabr (№209).- S.3.